

# BAYAT



№ 14 (642)



ƏBÜLFƏZ ÜLVİ

## BİR ARZUM ÇAĞLAYIR

Yaz gəlir yurduma, yazlıq gətirir,
Çiçəyi çırtlayır bağçanın, bağın.
Gülür, ovqatlara sazlıq gətirir,
Təbiət qaldırır bahar bayrağın,

Gəlir gülə-gülə, gülər üzüylə,
Nazlı təbiətə nazı gətirsin,
Sanki yaz yaranıb hər il özüylə,
Elimə, obama novruz yetirsin.

Budur ağ saçını qırxıb dağların,
Qırxılan yerlərə çiçək ələyir.
Mehr ilə qəlbinə axır bağların.
Sanki körpəsini açıb, bələyir.

Təbiət göstərir sirli sehrini,
Sanarsan lalələr balalayıbdı.
Elə bil əsən meh, həlim mehrini,
Ananın mehriylə cilalayıbdı.

İldırım əsəbin tutur tarımda,
Sanmayın çaxanda fəlakət verir.
İşə bax buludlar yas paltarında,
Torpağa daha çox bərəkət verir.

Çağlayır bulaqlar, coşur dənizlər,
Sabah tumurcuqlar üzə güləcək.
Elə bəzənirlər dərələr, düzlər,
Elə bil onlara elçi gələcək.

Bir arzum çağlayır hər addımbaşı,
Könüllər həsrətdən cəza almasın.
Əsir torpaqların azad olması,
Kaş gələn, növbəti yaza qalmasın.

## TANRIYA XİTAB

Tanrım, bu dünyama elə nur çilə,
Hələ o dünyanın zəngi olmasın.
Nəyimi istəsənləngit, ləng elə,
Sevgimin bir an da ləngi olmasın.

Çinara güləni kiçilt, tağ elə,
Yaxşı amalları daim sağ elə,
Əməl elə təmas qursun ağ ilə,
Üzlərin qaradan rəngi olmasın.

Elə bir ruh yarat insan canında,
Məhəbbət qaynasın yalnız qanında,
Barışla cənginin savaş anında,
Barış qalib olsun, cəngi olmasın.

Xar etmə, qoy gülsün quran, yaradan,
Gözlər yaxşı seçsin ağı qaradan,
Həsrət elə yoxa çıxsın aradan,
Hətta bir kiçicik tingi olmasın.

Ülviyəm ar edib, ara qatmıram,
Özgə bostanına mən daş atmıram,
Zənci millətinə nöqsan tutmuram,
Amma taleyimiz Zənci olmasın.

## O GÜNLƏR

Bir ömür yaşadım, mürəkkəb, sadə,
Anlar günə döndü, ötdü o günlər,
Özümün ömrümdən gəlib getsə də,
Bilmədim heç necə bitdi, o günlər.

Anmadım yel idi, yeldən atıydı?
Bilmədim doğmaydı, yoxsa yadıydı?
Sanki bir namazlıq salavatıydı,
Əlini üzümə sürtdü o günlər.

Əvvəl dolanardı solu, sağımda,
Qalmaq istəmədi cavan çağımda,
Mən onu əkmişdim ömür bağımda,
Xəzan bağçasında bitdi o günlər.

Hiss edə bilmədim bahardı, qışdı?
Özü də demədi oraqdı, xışdı?
Elə bil üşüyüb, soyuqlamışdı,
Bu günü, yorğan tək örtdü, o günlər.

Qədrini bilmədim bu, mənim xətam,
Yalvardım yüyürəm, yenidən tutam,
Bir taksi saxladım, bəlkə tez çatam,
Minib təyarəyə getdi, o günlər.

## OLMAYAN

*Əziz bir insanın müdrik söhbətinə müdaxilə*

Əsil insan olan kiçilən deyil,
İnsan ola bilməz cəlbi olmayan.
Adi müqəvvadan seçilən deyil,
Sərvəti bol olub, qəlbi olmayan.

Sevginin paklığı eşqə bələkdir,
Mələk olmayanın, adı fələkdir,
Barış simvoludur, sülhə bəzəkdir,
Qəlbində sülh olan, hərbi olmayan.

Namərd öz burnundan uzağı görmür,
Əsil şeir, sənət ölməzdir, ölmür,
Bir sözü şeir tək yaşada bilmir,
Şeirə köklənən təbi olmayan.

Kafir Məkkə bilməz, Mədinə bilməz,
Xidməti meyl edir nə dinə bilməz,
Həcərin mehrinə isinə bilməz,
Özünün mehrində Nəbi olmayan.

Ay Ülvi, mərd adam, hər an adamdır,
Sanma adamlığı danan, adamdır,
Deyərdim ən bədbəxt, nadan adamdır,
Hər şeyi var ikən, Rəbbi olmayan.

## SEVMƏSƏN DƏ

Daim intizarda saxladın məni,
A zalım, sən özün qəm sevməsən də.
Qara saçlarıma ələdin dəni,
Öz qara saçında, dən sevməsən də.

Həsrətin, hicranın közünü sevdin,
Sanma düzlük etdin, düzünü sevdin,
Özünü cəmlədin, özünü sevdin,
Bizim ikimizi cəm sevməsən də.

Dağ vurdun canıma, həm yollarıma,
Baxdın gözlərində kəm, yollarıma,
Çəni siyğə etdin sən yollarıma,
Dağlarda, qayada çən sevməsən də.

İstərdim məhəbbət umanın olum,
Sən mənim ürəyim, mən canın olum,
Bir az az, bir az çox qurbanın olum,
Təki sev, sən mənə tən sevməsən də.

Desən dünyanı ver, verərəm o dəm,
Amma bir sözüm var, deyim, etmə qəm,
Sevsən sevəcəyəm, deməyəcəyəm,
"Səni sevəcəyəm, sən sevməsən də".

## KÜSÜB BARIŞMAMAQ

Səni xoşlandırır küsüb , barışmaq,
Axı qərarını bu hal sərt verir.
Neynim, mənə qalır, yalnız alışmaq,
Amma bu da mənə xəcalət verir.

Sənə nələr edib nəsib təbiət,
Elə bil üstündən əsib təbiət,
Sanki barışından kəsib təbiət,
Küsü tərəfinə bərəkət verir.

Söz vardır bar vermir, bəhərin etmir,
Söz vardır heç nəyin qəhərin etmir,
Söz vardır min çəllək bal şirin etmir,
Söz vardır bal süzür, özü qənd verir.

Ən xoş anımıza qəm qatır küsü,
Elə bil dərd alır, dərd satır küsü,
Həsrətin çiçəyin çırtladır küsü,
Vüsala kədərdən vəziyyət verir.

Demirəm xislətin ar gətirir, ar,
Hərdən eyləsə də könlümüzü xar,
"Küsüb, barışmağın öz ləzzəti var",
Küsüb, barışmamaq əziyyət verir.

## BİLMİRƏM

İşə bax sevgim də qəm gətirir qəm,
Şəfa umduqlarım, şəfasız çıxır.
Mən daha heç kəsi sevməyəcəyəm,
Mən kimi sevirəm vəfasız çıxır.

Bu hissdən yaranıb kirpiyimdə nəm.
Neynirəm sevgimə rəvasız barı?
Mən daha heç kəsi sevməyəcəyəm,
Artıra bilmərəm vəfasızları.

Daşıya bilmirəm bu yaraları,
Bu yara dünyanı qəlbimdən söküb.
Bəxti qaraların, bəxt qaraları,
Sanki mən yazığın eşqinə köçüb.

Bir vaxt kölgəmi də əyninə geyən,
Biganə biriylə qalmaqaldayam.
Hər an mənə, mənim şairim deyən,
İndi dərk eləmir hansı haldayam.

Neyləyib imanın, nüyləyib dinin?
İnsanda insanlıq, yəni qurtarıb?
Bilmirəm o, mənə "mən"im deyənin,
Mənliyi bitibdir, "mən"i qurtarıb?

Amma bir hiss məni sanıb ağlı kəm,
Mənə qarşı çıxır, divan eyləyir.
Desəm də heç kəsi sevməyəcəyəm,
Sevgim, sevməyinə davam eyləyir.

## YAŞADIM

Canım, heç vaxt canına dərd vermədim,
Gah mehrində, gah tələndə yaşadım.
Özgə dərdə əhəmiyyət vermədim,
Sənsə mənə, dərd böləndə yaşadım.

Qul eylədim, qul olmadım dözümə,
Milçək Fil tək görünmədi gözümə,
Mən elimi güldürmədim, özümə,
Birgələşib, el güləndə yaşadım.

Könlüm dedi:-ya öl, yaşa ya haqqla,
Şər olsaydım, yaşayardım nə haqqla?
Əl tutmadım, görüşmədim nahaqla,
Nahaq gedib, haqq gələndə yaşadım.

Hər an qurdum, qurulanı sökmədim,
Susuz qaldım, namərd suyu içmədim,
Saray boyda ev verdilər, köçmədim,
Məmnunluqla göz giləndə yaşadım.

Gülüm, sanma haqda çaşan yaşayar,
Kimi şətin, kimi asan yaşayar,
Bu bəllidir, diri insan yaşayar,
Səndən ötrü mən öləndə yaşadım.

## NECƏ HESABIN KƏSİM

Hərdən inciyirsən, küsürsən, amma,
Yerişin, duruşun sözə təb verir,
Elə bil hüsnündən bayılmağıma,
Ərköyün baxışın mənə həb verir.

Artıq dən yaradıb, saçlarımda dən,
Bu nə ərköyünlük? hardandır səndə?
Səndə gördüyümü görməmişəm mən,
Məhəbbət simvolu Leyli nənəmdə.

Vallahi, billahi etmirəm tənə,
Bax budur, gözlər də ərköyünləşib.
Elə ərköyünlük edirsən mənə,
Şeirdə sözlər də ərköyünləşib.

Qoy sənə ərköyün söyləyim ərklə,
Onda nə şübhə-şək, nə sirr yaranar.
Bir dəfə adını desəm ürəklə,
Bəlkə min kitablıq şeir yaranar.

Sənə qurban canım, candan qorxmuram,
Bilirsən nədəndir söhbətim, bəhsim?
Min kitab yaransın, ondan qorxmuram,
Dərcinin mən necə hesabın kəsim?

## BİR ŞEİR YAZMAĞA MƏNİ SÖVQ ELƏ

Leyli nənəmizdən götürüb dərsi,
Nazından ruh alır yazın nəğməsi.
Elə bil səsinə köklənib səsi,
Ondadır xoş gəlir sazın nəğməsi.
Bax yenə üzümə əzəl şövq ilə,
Bir şeir yazmağa məni sövq elə.

İsmət kök salıbdır sevgi himində,
Dişin bənzərlikdə incini seçib.
Sanıram lalələr rəng seçimində,
Sənin yanağının rəngini seçib.
Onunçün bu qədər sevilir lalə,
Bir şeir yazmağa məni sövq elə.

Demirəm təkrar et, küsünü bəyən,
Sevgi tövsiyə et mənə, hədə yox.
Təkrara biliyin anası deyən,
Elm haqda deyibdir məhəbbətə yox.
Gül, danış, sevgini mehrinə bələ,
Bir şeir yazmağa məni sövq elə.

Tovuz quşlarından nəyin kəm bəyəm,
Ahu söyləmirəm qaçıb gedərsən.
Qorxuram adına durna deyərəm,
Durna qatarıyla uçub gedərsən.
Gəl öz eşqimizə qurmayaq tələ,
Bir şeir yazmağa məni sövq elə.

Mənim ilhamımın sənsən şeydası,
Sanıram o, səni Tanrı sanıbdır.
Şeirin qanunu, nəzmin qaydası,
Sənin üzərində nizamlanıbdır.
Səndənmiş şeiri sevməyim belə,
Bir şeir yazmağa məni sövq elə.

O qədər bağlıyam şeirə, sözə,
Bunlara bağlılıq pis işdir məgər?
Bir sirri açıram, sanma möcüzə,
Ölsəm, dirilməmi istəsən əgər,
Nə ağla, nə sızla, nə də tut dilə,
Bir şeir yazmağa məni sövq elə.